Həsənov Elməddin

## NURMÜHƏMMƏD ƏNDƏLİBİN "YUSİF VƏ ZÜLEYXA" ƏSƏRİNDƏ ƏNƏNƏ VƏ YENİLİK

Klassik türk ədəbiyyatının ilk dövrlərindən etibarən bir çox şair "Yusif və Züleyxa" mövzulu məsnəvilər qələmə almışlar. Agah Sirri Ləvənd "Türk ədəbiyyatı tarixi" əsərinin I cildində türk ədəbiyyatında "Yusif və Züleyxa" məsnəvisi qələmə almış: "Şeyyad Həmzə, Xəliloğlu Əli, Suli Fəqih, Qazi Zərir, Əhmədi, Şeyxoğlu Mustafa, Krımlı Əbdülməcid, Dür Big, Həmdullah Həmdi, Xətayi(Şah İsmayıl deyil), Çakəri Sinan, Behişti Əhməd Sinan, Kamal Paşaoğlu, Həmidi(əsərini 1516-cı ildə Bəlx şəhərində cığatay dilində yazmışdır), Bursalı Cəlili, Liqai, Nemətullah, Daşlıcalı Yəhya, Xəlifə, Qaramanlı Kami Məhməd, Ziyai Yusif Çələbi, Şikari, Monastırlı Qazi Sinan, Akşəhərli Qubari Əbdürrəhman, Bursalı Həvai Mustafa, Bağdadlı Zehni Əbdüddəlil, Rüfəti Əbdülhey, Həvai Əbdürrəhman, Köprülüzadə Əsəd Paşa, Əhməd Mürşidi, Molla Həsən, Süleyman Tevfiq Bəy, Məmməd İzzət Paşa" kimi şairlərin adını çəkir.

"Yusif və Züleyxa" mövzusuna müraciət edən klassiklərdən biri də türkmən ədəbiyyatının görkəmli nümayəndəsi Nurmühəmməd Əndəlibdir. Əndəlib həm klassik türkmən ədəbiyyatının, həm də Orta Asiya türklərinin klassik ədəbiyyatının inkişafında, məzmun və forma cəhətdən təkmilləşməsində mühüm xidmətlər göstərmiş böyük türkmən şairlərindən biridir. O, türkmən ədəbiyyatında dastan janrını inkişaf etdirmiş, onun türkmən ədəbiyatında yayılmasını təmin etmişdir. Əndəlibin böyük xidmətlərindən biri də ədəbi dili xalq dilinə yaxınlaş-dırmasıdır. O, bədii yaradıcılığında ərəb və cığatay ünsürlərindən istifadə etməkdən uzaq durmuş, xalqın danışıq dili əsasında gözəl əsərlər yazmağın mümkünlüyünü "Yusif və Züleyxa", "Leyli və Məcnun", "Zeynal Ərəb", "Baba Rövşən" kimi məşhur dastanları və "Oğuznamə", "Nəsimi", "Səəd Vəqqas" kimi tarixi poemaları və bir çox lirik şeirləri vasitəsilə sübut etmişdir. Bununla da onun əsərləri özündən sonra gələn yazıçı və şairlər üçün təkrarolunmaz bir nümunə olmuşdur.

Əndəlibin "Zeynal Ərəb", "Yusif və Züleyxa", "Leyli və Məcnun" kimi dastanları türkmən xalq yaradıcılığının klassik dastançılıq ənənələrini özündə əks etdirən ən gözəl nümunələrdəndir. Bu dastanlar XVIII-XIX əsrlərdə köçürmə üsulu ilə çoxaldılmışdır.

Yuxarıdaadı çəkilən dastanlar xalq ənənələrinə uyğun olaraq nəzm və nəsrlə yazılmışdır. Əndəlibin "Yusif və Züleyxa" dastanı türk xalqları ədəbiyyatında yaradılan ənənəvi dastanların kamil nümunələrindən biridir. Dastanı yazarkən şair Nəsirəddin Bürhanəddin Rəbquzinin əsərini mənbə olaraq götürmüşdür. Əsəri mənbə olaraq götürməsinə baxmayaraq əsər öz orijinallığı ilə seçilir. Əndəlibin nəsr və nəzmlə yazılan "Yusif və Züleyxa" dastanı XX əsrdə Daşkənd, Buxara, Kağan, Səmərqənd şəhərlərində çap edilmişdir. Daşkənd, Aşqabad, Səmərqənd, Düşənbə, Sankt-Peterburq şəhərlərindəki əlyazmalar institutlarında və kitabxanalarında nüsxələri saxlanılmaqdadır. (5, 10) Əndəlibin "Yusif və Züleyxa" dastanı Aşqabadda dəfələrlə çap olunmuşdur. 1973-cü ildə ədəbiyyatşünas Gəldi Nəzərov dastanın tənqidi mətnini tamamlayıb təqdim etmişdir.

Əsəri oxuduqca Əndəlibin Yusif haqqındakı bütün əsərlərə bələd olduğu aydın görünür. Lakin şair əsas mənbə olaraq "Qisasul-ənbiya"dan bəhrələnmişdir. Bu fikri şairin: "Amma nəqlimi dəftəri mötəbər "Qisasul-ənbiya"dan rəvayət qılıb xəbər verirəm" (2,12)- kimi sözləri təsdiqləyir. Əndəlibin müxtəlif səhifələrdə "başqa bir rəvayətdə isə".... kimi ifadələrdən istifadə etməsi isə onun başqa mənbələrdən də xəbərdar olduğunu göstərir.

Şair əsəri yazarkən dini mənbələrə istinad edib, ilahi xususiyyətləri nəzərə almasına baxmayaraq, əsərin əsas zəminində həyat hadisələri və əxlaq dayanır. Yusif gəncliyində xəta edib öz hüsnünün gözəlliyi ilə qürrələnir, simasının gözəlliyinə görə özünü heç bir dəyərə sığmayan hesab edir. Bu səbəbdən də o, kifayət qədər ucuz qiymətə-on səkkiz qara təngəyə satılır. Əlbəttə ki, şair bu məsələyə həm Allahın cəzası kimi yanaşmış, həm də əxlaqi cəhətdən lovğalığı, özündənrazılığı pisləmiş, insanın dəyərinin onun görkəmində deyil, ağlında olduğunu göstərməyə çalışmışdır. Nurmühəmməd Əndəlibin bu əsəri "Qisseyi Yusifi-Züleyxa", "Yusifi-Siddiqi Züleyxa", "Yusif ilə Züleyxa" və s. adlarla tanınmışdır. Müxtəlif mənbələrdə öz quluna aşiq olan bir qadının obrazında təsvir olunan Züleyxa Əndəlib dastanında yetkin bədii obraz, saf sevgi, vəfa və sədaqət, rəhm və şəfqət, lətafət, təvazökarlıq simvolu kimi qələmə alınmışdır. Dastan özünün mövzusu və ənənəvi süjet əsasında yazılması səbəbi ilə özündən əvvəl yazılan əsərlərə oxşayır. Lakin Əndəlib daha çox qəhrəmanlarının peyğəmbərlik xüsusiyyətlərinin qabardılmasına deyil, onların adi insani xüsusiyyətlərini nəzərə çatdırmağa diqqət yetirir.O bu yoldan istifadə edərək, öz zəmanəsinin arzu və istəklərini daha təbii yolla çatdırmağa nail olur.

Dastanda Yusif ağıl, idrak, hikmət, məhəbbətdə sədaqətlilik rəmzidir.O təkcə mehriban, sədaqətli və səmimi deyil, həm də öz xalqının dərdini dərindən duyan bir hökmdar kimi təsvir olunur. Özü çətinlikdə olmasına baxmayaraq, daim xalqının dincliyini düşünür. O, qul kimi satıldıqda, Misirdə zindanda olanda, atasından aralıda yaşayanda belə özündən çox ətrafındakıları düşünür. (4, 123)

Yusifin elinə-obasına olan sevgisini qardaşlarından ayrılarkən dediyi şeirdə də aydın hiss etmək olur.

Ayrılıq odunun dərdi yamandır,
Atamın başınaaxır zamandır,
Bu getməkdən indi gəlmək gümandır,
Elim, xalqım, qarındaşım, aman ol. (4, 55)

Bu misralar o dövrdə-XVIII əsrdə İran hökmdarı Nadirşah tərəfindən əsir götürülən, xüsusilə də feodalizm dövründə qul kimi satılan insanların naləsini özündə əks etdirir. Əndəlibdə dastanın bir çox hissəsində rast gəldiyimiz belə lövhələr mahiyyət etibarilə dövrü ilə sıx bağlıdır. Əndəlibin dastanında Yusif və Züleyxanın bir-birlərinə qarşı qaygısı çox güclü təsvir edilmişdir. (4,129) Biz ondan əvvəlki "Yusif və Züleyxa"larda onlar arasındakı münasibətin belə təsvirini görmürük. Yusifə ölümü agah olduqda Züleyxa ilə vidalaşır, onun könlünü alır, bu vaxta kimi onunla

xoşbəxt həyat keçirdiyinə görə minnətdarlığını bildirir. Daha sonra Züleyxadan onun ölümündən sonra belə sevinc dolu həyat keçirməsini xahiş edir. Bunu da aşağıdakı bənddə görürük.

Mən gedəndə qoyma özün cəfaya,
Fəğan edib qılma yenə əzaya,
Sən amanda ol, tapşırmışam Xudaya,
Xoş aman ol, canım, getməli oldum. (4, 175)

Dastandakı gözəl səhnələrdən biri Yusif və Züleyxanın qovuşduğu gecədə şeir vasitəsilə bir-birlərinə öz münasibətlərini bildirdikləri səhnədir. Bu səhnədə onların söylədiyi qəzəllər diqqəti cəlb edir. Bu qəzəllərdən sonra könlü həyatdan soyuyan Züleyxa yenidən həyata qayıdır.

Məsələn, Yusif Züleyxaya öz məhəbbətini izhar edərkən, Züleyxa onu qəbul etmir. Bu zaman Yusifin dediyi şeir onun hisslərini ifadə edir:

Tutaşdı, yandı canımız, Züleyxacan, ciqi-ciqi
Qurudu təndə qanımız, Züleyxacan, ciqi-ciqi
Al bu dünya xəracını, mənə ver hüsnün bacını,
Bəxş etdim taxtı-tacını, Züleyxacan ciqi-ciqi. (4, 128-129)

Yusif Züleyxa üçün taxt-tacdan imtina etməyə hazır olsa belə, amma Züleyxaya onun sözləri təsir etmir. Buna görə də Züleyxa Yusifin sevgisindən əl çəkdiyini bildirib, aşağıdakı qəzəli səsləndirir:

Ey üzü gül nigarımız, qılma cəfa, ciqi-ciqi,
Məsti könül güzarımız, eylə vəfa , ciqi-ciqi
Bütün gün ahu işim, göylərə çatdı nəfəsim,
Züleyxa dedi:" Yox işim, yarım, sənlə, ciqi-ciqi. (5, 14)

Nə qədər Yusif Züleyxanı istəsə də, Züleyxa onu istəmir. Yusif özünü bir otağa qapayıb ah-zar etməyə başlayır. Züleyxanın qırx ildə çəkdiyi əzabı o, qırx gündə çəkir. Beləliklə, Tanrının əmri ilə Cəbrayıl Yusifə Züleyxa ilə birgə olmasının xəbərini çatdırır. Bundan sonra onlar bir-birlərinə qovuşub, xoşbəxt yaşayırlar. Bu səhnə digər "Yusif və Züleyxa"larda təsvir olunmamışdır.

Əndəlib dastanındakı digər yenilik şair tərəfindən Yusifin bacısının obrazının yaradılmasıdır. Baxmayaraq ki, bu obraza dastanda az yer verilib, amma obraz oxucunun təxəyyülündə dərin iz qoyur. Yusif qardaşları tərəfindən aparıldıqdan sonra, Yaqub peyğəmbər ağacın altında qəmli oturur. Bu zaman onun qızı (Yusifin bacısı) yanına gələrək belə deyir: "Ey ata, mənim Yusifimi neynədiniz, nuru-didəm, canparəm hanı, ürəyimin qüvvəti və canımın rahatı, sirdaşım hanı? Çox pis yuxu gördüm. Gördüm ki, on canavar onu dövrəyə alıb öldürür. Ey canım atam, Yusifimi mənə göstər, yoxsa həlak olaram"... Atasından Yusifin qardaşları ilə səhraya getdiyini öyrənəndə onun şübhəsi daha daartır, fəryad edərək deyir:

Heyf ki, Yusifimi görmədim,
Görüş qiyamətə qaldı, neyləyim?
Gizlində bir hali dilin sormadım
Görüş qiyamətə qaldı, neyləyim? (4, 29)

Nə qədər uzaqda olsa da, Yusif də daima bacısına qarşı böyük məhəbbət hissi bəsləyir, çünki kiçik yaşında anasını itirən Yusifə bacısı analıq edir, onu böyüdür. Bu obraz "Qərib və Şahsənəm" dastanında Qəribin bacısı obrazını xatırladır. (1,50) Dastanın əsas qəhrəmanları Yusif və Züleyxadır. Əndəlib özünün eşq, məhəbbət, əxlaq və ədəbə dair mühüm fikirlərini bu obrazlar vasitəsilə ifadə etmişdir. Yusif ağıllı, dürüst, səmimi insan, ədalətli və xeyirxah şah, mənəvi dünyası gözəl və yüksək insani fəzilətlərə sahib aşiqdir. Onda möhkəm iradə, əzmkarlıq, davamlılıq, öz fikrində sabitlik kimi müsbət keyfiyyətlər özünü göstərir. Yusifdəki sabit iradə onu tüfeyli bir quldan əzəmətli bir şah pilləsinə qədər qaldırır. Züleyxa dürüst, daxili və xarici dünyası gözəl, güclü məhəbbətə sahib olan, vəfalı məşuqədir. Bu iki obraz əsər boyu mənən böyüyür, etdikləri xətaları anlayıb aradan qaldırır və mənəvi kamilliyə yetişirlər. Biz Yusifin bu yüksəlişini zahirən görə bilirik. O əvvəl qul, sonra isə şah olaraq bu mərhələləri keçir və müdrikliyə çatır. Züleyxa da belə bir mənəvi yüksəliş keçirir.

Birinci pillədə Züleyxa həqiqi mənəvi eşqdən uzaqdadır, öz nəfsinin əsiridir.
Bu mərhələdəki eşq onu daha aşağı pilləyə salır, insanların məsxərə obyektinə çevirir. Bu xüsusiyyət onun mənən nə qədər zəif biri olduğunu göstərir.

İkinci pillədə Züleyxa bu eşqdən imtina edir, zahid kimi yaşamağa başlayır. Həyatdan uzaqlaşır və yalnız ilahi məhəbbətə tapınaraq yaşayır. Üçüncü pillədə o, həyata qayıdır, onun sevgisi mükəmməllik qazanır. Zahidlikdən yeni yetkin sevgi peyda olur. Bu məhəbbət həyati şəhvətdən yüksək mənəvi duyğuya çevrilir. Onun kamilliyə çatmasında Yusifin təsiri böyükdür. Əndəlib böyük məharətlə onları əxlaqi və hüquqi cəhətdən bərabərləşdirdikdən sonra qovuşdurur. (4, 122)

Yusif Züleyxanın mərhəmi kimi ona qulluq edərkən, Züleyxa onu bir qəsrə gətirib yoldan çıxarmağa çalışır. Lakin Yusif otaqdan qaçır. Belə olan halda, Züleyxa onun ardıyca qaçaraq köynəyini arxadan yırtır. Biz bu səhnəni digər "Yusif və Züleyxa"larda da görürük. Lakin Əndəlib digərlərindən fərqli olaraq aşiqləri qovuşdurmamışdan qabaq onları bərabərləşdirir. (4, 120).Aradan bir neçə il keçdikdən sonra, Yusif hökmdar, Züleyxa isə azad qadın olur. Yalnız bundan sonra Yusif Züleyxaya öz eşqini izhar edir. Lakin zahidlik mərhələsindən keçmiş Züleyxa Yusifin eşqini qəbul etmir. Şair mənən onları bərabərləşdirmək üçün qırx gün müddətində Yusifi zahidlik mərhələsində təşvir edir. Yalnız belə haldaYusifin eşqi Züleyxanın eşqinə layiq hesab olunur və onlar qovuşurlar. (4, 122)

Əndəlib Məlik Riyan və Misir Əzizi obrazlarını birləşdirib sadəcə Məlik Riyan obrazını saxlayır, hər ikisinin xüsusiyyətini birləşdirərək mükəmməl bir obraz yaradır. Yusif özü əsərdə Misir Əzizi mövqeyinə yüksəlir. Onun bu

mərtəbəyə yüksəlməsinə uzaqgörənliyi səbəb olur. O öz xalqını yeddi il müddətində quraqlıq və aclığın cəngindən qurtarır. Bu yeddi il ərzində sadəcə bir nəfər aclıqdan ölür. Bu halda Yusif özünü günahkar bilib qınayır.(4, 82)

Əndəlibin "Yusif və Züleyxa" dastanı həm ideoloji, həm bədii, həm də dil xüsusiyyətlərinə görə də özünəməxsus xüsusiyyətlərə malikdir. Əvvəla, bunu qeyd etmək yerinə düşərdi ki, Nurmühəmməd Əndəlibin "Yusif və Züleyxa"sını bu mövzuda yazılmış əsərlərin digərlərindən fərqləndirən əsas xüsusiyyət hər bir hissənin yuxugörmə motivi ilə başlamasıdır. Heç bir əsərdə Əndəlibin "Yusif və Züleyxa" dastanı qədər yuxugörmə motivinə rast gəlinmir. Digər əsərlərdə yuxu əsərin əvvəlində görülür və bu yuxu hadisələrin başlanğıcı və inkişafı ilə əlaqədar olur. Bu əsərdə isə qəhrəmanlar yuxu görür və onların sonrakı fəaliyyəti məhz bu yuxu ilə əlaqəli olur, dastandakı gələcək hadisələr haqqında oxucunu xəbərdar edir. Məsələn, biz Yusifin səadəti, peyğəmbərliyi haqqındakı məlumatları onun yuxusundan xəbər alırıqsa, başına gələcək bəlalar haqqında məlumatları isə Yaqub və onun bacısının gördüyü yuxular vasitəsilə xəbərdar oluruq. Məlik Züğarın yuxuda Yusifi qul kimi alacağını görməsi Yusifin qul olacağına işarədir. Bundan başqa Züleyxa ilk dəfə Yusifi yuxuda görür və ona aşiq olur. İkinci yuxunun nəticəsində Misirə gəlir və Yusifi burada tapır. Saray işçiləri Səfa və Xənsa da yuxu görür və bu yuxu səbəbi ilə birinin ucalması, digərinin ölümü haqqında məlumatı əvvəlcədən öyrənirik. Məlik Riyanın ölkəsi ilə bağlı gördüyü yuxusunu (4,85), Yaqubun Yusiflə vüsala yetişmələri yuxusunu (4,3), eyni zamanda Yusifin öz ölümünü əvvəlcədən yuxuda görməsini (4,337) də bu yuxular sırasına aid edə bilərik. Əlbəttə, bu yuxular ilahi məzmun daşıyır və buna uyğun olaraq da izah olunur. Onlar dastanın gedişatına və hadisələrə birbaşa təsir göstərir. Kadıoğlu İdris və Diyarbakırlı Ahmedi kimi tədqiqatçılar əsərin həm də "Əhsənül qissə" adlandırılmasını məhz əvvəldə, ortada və sonda yuxugörmə hadisəsini olması ilə əlaqələndirirlər. (3, 46) Əsərin məzmun hissələri bir-biri ilə sıx bağlıdır və bu hissələrdən biri olmazsa, təbii ki, əsər natamam görünər. Bunun əsas səbəbi onunla əlaqədardır ki, buradakı hadisələrin hamısı bir-biri ilə vəhdətdə göstərilmiş, əvvəlki hissədə özündən sonra gələcək hissə ilə əlaqəli işarələr verilmiş, sonrakı hissələrdə isə əvvəlki hissəyə geri qayıdılmış və xatırlanmışdır.

Belə ki, bütün əsər boyu Yusifin Misirə gəlməsinin səbəbi olaraq Züleyxanın yuxusunu səbəb biliriksə, əsərin sonunda məlum olur ki, əsərin əvvəlində səhvən Yaqub peyğəmbər kənizinin oğlunu satdığı üçün, qadın Yaqub peyğəmbərə qarğımış və öz övladına qovuşmayınca onun da övladından ayrı qalmasını istəmişdir. Bundan başqa Yusifin quyuya düşməsinin səbəbi olaraq qardaşların xainliyini səbəb kimi görürüksə, daha sonra məlum olur ki, Şis peyğəmbərin dövründə yaşayan Daniş adlı bir zahid yuxuda Yusifin üzünü görmüş, Tanrıdan onun üzünü görmək üçün şans istəmiş, Tanrı isə onu 1250 il bu quyuda yuxuya aparmış və daha sonra Yusifi onunla görüşdürmək üçün quyuya şalmışdır. Buradan belə nəticəyə gəlmək olar ki, "Yusif və Züleyxa" dastanındakı hadisələr bir biri ilə sıx əlaqədədir.

Nurmuhəmməd Əndəlibin "Yusif və Züleyxa" əsəri türk xalqları ədəbiyyatında özünəməxsus yer tutur. Şair həm obrazların təsvirində, həm də mövzunun işlənilməsində sələflərini təkrarlamamış, mövzuya tamamən yeni aspektdən yanaşmışdır. Əsərə yeni personajlar daxil edərək obrazlar sistemini daha da zənginləşdirmişdir. Özündən əvvəl bu mövzuya müraciət edənlərdən fərqli olaraq obrazlarının daxili aləminin geniş təsvirini vermişdir. Məhz buna görə də, klassik ədəbiyyatda bu qədər geniş yayılmış mövzunu işləyərkən yeniliklər etməyə çalışmış, əsər özünəməxsusluğu ilə daim diqqət mərkəzində olmuşdur.

**İstifadə olunmuş ədəbiyyat siyahısı :**

1. Azərbaycan dastanları. Beş cilddə. III cild. Bakı, "Lider nəşriyyatı", 2005, 328 səh
2. F. Musamuhammedov. Shoir Andalib haqida / O'zbek tili vaadabiyoti. Jurnal. 1963. №4. 63s.
3. Kadıoğlu İdris, Diyarbakırlı Ahmedi. Yusuf ve Züleyha. Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları, 2009, 102s.
4. Nurmühəmməd Əndəlib. Seçilmiş əsərləri: 2 cilddə, II cild. Bakı: Mütərcim 2011, 348 s.
5. Sherxonova Z. Andalibning "Yusuf va Zulayho" dostonidagi she'riy parchalarning janriy xususiyatlari Samarqand :2014. 29

***Açar sözlər:*** *Nurmuhəmməd Əndəlib, Yusif və Züleyxa, türkmən ədəbiyyatı, ənənə, yenilik..*
*Ключевые слова: Нурмухаммад Андалиб, Иосиф и Зулейха, традиция, инновация,туркменская литература.*
*Keywords:Nurmuhammad Andalib,Joseph and Zulaycho,tradition, innovation, turkmen literature.*

**Резюме**

**Традиции и инновации в пьесе Нурмухаммеда Анедиба "Юсуф и Зулейха"**

Одна из любимых тем мировой литературы «Юсуф и Зулайка» находилась в центре внимания представителей классической литературы. Великий туркменский поэт Нурмухаммад Андалиб также затронул эту тему, и в отличие от большинства поэтов он написал свою работу в форме саги, а не как куплет. Это привело к знакомству работы с народной речью. В нашей статье работа Андалиба была проанализирована отличительной черты.

**Summary**

**Tradition and innovation in Nurmuhammed Anedib's "Yusuf and Zuleykha"**

One of the favourite topics of the world literature, "Jozeph and Zulaika," was in the focus of attention of classical literature representatives. The great turkmen poet, Nurmuhammad Andalib also addressed this topic and unlike most poets, he wrote his work in the form of a saga, not as a couplet. This has led to the familiarity of the work to the folk speech. In our article, Andalib's work has been analyzed for one or the other distinctive feature.